# Bankda müştəri olmaq üçün

*İsveç Bankında müştəri olmaq üçün siz kimliyinizi təsdiq edməlisiniz və siz həmçinin sizə bir bank hesabının nədən lazım olduğunu izah etməlisiniz. Bu sənədin aşağı hissəsində bir bank şöbəsinə müraciət edərkən bankın sizdən tələb edəcəyi məlumatlar və yol gıstərən təlimatlar qeyd edilmişdir.*



## Şəxsiyyətin təsbiti

Siz həmişə kimliyinizi təsdiq edə bilməlisiniz

1. Siz kimliyinizi təsdiq etmək üçün etibarda olan İsveç kimlik sənədi təqdim etməlisiniz, bu ya passport ya milli şəxsiyyət vəsiqəsi ya da BankİD ola bilər. Siz hətta şəxsiyyətinizi İsveç sürücülük vəsiqəsi ilə təsdiq edə bilərsiniz.
2. Əgər sizin etibarlı İsveç şəxsiyyət vəsiqəniz yoxdursa, siz şəxsiyyətinizi digər ölkənin vətəndaşı olduğunuzu təsdiq edən passport və ya digər şəkili olan şəxsiyyət vəsiqəsi ilə təsdiq etməlisiniz və həmən sənəddə sizin vətəndaşlığınız qeyd edilməlidir Bu sənəd hər hansı bir səlahiyyətli orqan tərəfindən və ya başqa səlahiyyətli çap tərəfindən verilməlidir. Diqqətinizə çatdirmaq istəyirik ki bank sizdən əlavə sənədlər tələb edə bilər.
3. Əgər sizin şəxsiyyətinizi təsdiq edən hər hansi bir sənədiniz yoxdursa, onda siz müstəqil və inandırıcı bir mənbədən olan başqa sənədlər vasitəsilə kimliyinizi təsdiq edə bilməlisiniz və hansı ölkənin vətəndaşı olduğunuzu göstərə bilməlisiniz.

## Xarici tələbələr

Əgər siz xarici ölkədən gələn tələbəsinizsə onda siz şəxsiyyətinizi yuxarida qeyd edilən şəkildə təsdiq etməlisiniz.
Bundan əlavə sizin ehtiyaciniz olan aşağıdakılardır:

- Oturum və ya viza (Avropa vətəndaşlarına aid deyildir)
- Universitetə daxil olma haqqda sənəd, sənəddə sizin təhsil müddəti qeyd edilməlidir.

## Bankhesabının ehtiyacı olması

Siz bu bankhesabının nədən ehtiyacınız olmasını və bu hesabı nəyə istifadə edəcəyinizi izah etməlisiniz.

Bu, əmək haqqı və ya digər təzminatlarin bank hesabina yatırılması üçün, ev kirayəsinin ödənilməsi və ya da pulun bankda saxlanması üçün ola bilər.

Bank həmçinin müştəri kimi sizin haqqda daha ətraflı məlumat almaq üçün sizə digər suallar da verə bilər.

**Bankhesabı açmaq hüququ...**
Bankhesabına daxil olmaq imkanı, Dövlət Depozit Təminatı və əsas ödəniş xidmətləri ilə əhatə olunur, və prinsipcə hər bir şəxs üçün azaddır. Bu sizin vətəndaşlığınızdan və İsveç social təminat nömrənizdən asılı olmayaraq tətbiq olunur.

**...amma bəzən bank sizə bankhesabı açmağa inkar cavabı verə bilər.**
Bank sizinçin bankhesabını o zaman aça bilməz ki:

- Əgər bank sizin şəxsiyyətinizi yetərincə təhlükəsiz şəkildə təstiq edə bilməzsə.
- Əgər bank sizin hesab açmaq istəyiniz haqqda verdiyiniz məlumatın kifayət qədər olmadığını təsbit edərsə
- Bankhesabını açaraq, bank hər hansı bir qanun və ya digər qaydaların pozulmasına səbəb olursa

Bank sizə bankhesabı açmağı həmçinin o zaman inkar edə bilər ki siz əvvəllər həmən banka qarşı sahtakarlıqda bulunmuşsunuzsa.

**Unutmayın ki...**

- Siz bankın suallarını başa düşüb onların suallarına cavab vere bilmelisiniz…
- Siz hetta bankdan aldığınız bütün məlumatları başa düşməlisiniz.
- Əgər sizə söylədiklərinizi banka tərcümə etməyə yardim edən bir şəxs lazımdırsa, siz həmən şəxsi özünüzlə bank görüşlərinə götürməlisiniz.
- Bank sizdən pulunuzun hardan gəlməsini soruşacaqdır.
- Bankda olan hesabınız və digər bank xidmətləri bankla müvafiq müqavilə olmadan başqa şəxslər tərəfindən istifadə edilə bilməz.
- Bank sizdən digər sualları da soruşa bilər və sizdən başqa tələblərdə buluna bilər.

## Digər məlumatlar

Başqa məlumatlar almaq üçün öz bankınıza müraciət edə bilərsiniz.

Məlumatları hətta aşağına qey edilən yerdən ala bilərsiniz:

**Sveriges Riksdag (İsveç Parlamentosu):**
Qanun (2017:630), çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlər haqqında daha çox məlumat almaq üçün: www.riksdagen.se internet səhifəsinə baxın.

**Finansinspektionen (Maliyyə Müfəttişliyi):**
Mali təftiş şöbəsinin çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlər haqqında ümumi qaydalar və qanunları.
Bu haqqda www.fi.se internet səhifəsində daha artıq məlumat ala bilərsiz.

**Svenska Bankföreningen (İsveç Banklarşirkəti)**
Çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı bankın tədbirləri haqqında məlumatları www.swedishbankers.se internet səhifəsindən ala bilərsiz.

**Riksgälden (Milli borclar ofisi)**
Əmanətlərin sığortalanması haqqında məlumatı ətraflı www.riksgalden.se internet səhifəsindən oxuya bilərsiniz.

Svenska Bankföreningen
Swedish Bankers' Association
www.swedishbankers.se